ГЕОЛОГИЯ И ГЕОФИЗИКА

© Z.B.Abdullayev, S.F.Hüseynova, T.Z.Təhməzova, G.A.Muradxanova, 2015

HİPERBAZİTLƏRİN SERPENTİNLƏŞMƏSİNDƏ DƏMİR FƏSİLƏSİ ELEMENTLƏRİNİN İNDİKATOR ROLU

Z.B.Abdullayev[1], S.F.Hüseynova[1], T.Z.Təhməzova[2], G.A.Muradxanova[1]

1 – *Azərbaycan MEA Geologiya və Geofizika İnstitutu*
AZ1143, Bakı, H.Cavid prosp., 119

2 – *Azərbaycan MEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutu*
AZ1143, Bakı, H.Cavid prosp., 113

Məqalədə dəmir fəsiləsi elementlərinin müxtəlif tip serpentinitlərdə paylanma qanunauyğunluqlarına əsaslanaraq, onların serpentinləşmə prosesində indikator rolu oynamalarından bəhs edilir. Göstərilir ki, geokimyəvi cəhətdən bu elementlər arasında sıx əlaqə mövcud olmasına baxmayaraq, serpentinləşmə prosesinin gedişində davranışları arasında xeyli fərq yaranır.

Qabbro-hipertbazit assosiasiyası süxurlarının geokimyasını araşdırmaqla nəinki onların filizlilik potensialı barədə fikir irəli sürmək olar, hətta, bu əməlgəlmələrin formalaşmasının fiziki-kimyəvi şəraitini bərpa etməklə, onların müasir yer qabığı şəraitində tutduğu mövqeyinin əsasını təyin etmək mümkündür. Bu cəhətdən aparılmış fundamental geokimyəvi tədqiqatlar problemin əhatə dairəsini xeyli genişləndirmiş, hiperbazitlərin genezisi məsələləri barəsində mühüm fikirlər irəli sürməyə şərait yaratmışdır. Bu sahədə dəmir qrupu elementlərinin geokimyəvi tədqiqi də mühüm rol oynamışdır (Абдуллаев, 2007; Babazadə, 2012). Bu qrupa daxil olan elementlər – titan, vanadium, xrom, manqan, nikel və kobalt, tədqiq olunan süxurlarda daima yaxınlıq təşkil edərək, onların əməlgəlmə şəraitindən və serpentinləşmə dərəcələrindən asılı olaraq miqdari dəyişikliyə məruz qalırlar. Məhz bu elementlər özlərində onları daşıyan süxurlar barədə mantiyadan başlayaraq ta müasir hala gələnə qədər zəngin informasiya toplamaq qabiliyyətinə malikdir.

Digər regionların serpentinitlərinin geokimyəvi cəhətdən fundamental tədqiqi fonunda (Богданов и др., 2000; Велинский и др., 2004; Штейнберг и др., 1991) Kiçik Qafqazdakılar diqqətdən xeyli kənarda qalmışdır.

Ultraəsasi süxurlar üçün xarakterik olan bu koherent elementlər geokimyəvi və kristallokimyəvi cəhətdən geniş yayılmış maqnezium və dəmirə daha yaxın olduqları üçün məhz ultraəsasi süxurlarda mükəmməl paylanmalarına imkan yaranmışdır. Bununla yanaşı, onu da qeyd etmək vacibdir ki, maqmatik süxurların ümumi fonunda bu qayda bariz surətdə özünü göstərsə də, bazit-ultrabazit assosiasiyası daxilində onlar arasında bəzi fərqlənmələr mövcuddur. Belə ki, əgər nikel və kobalt, bir qayda olaraq, daha əsasi tiplərdə təmərküzləşirlərsə, titan və vanadium nisbətən turş tərkiblərə meyil edirlər. Məhz bu səbəbdən də, məxsusi davranışlarına əsaslanaraq, biz bu elementləri titan-vanadium, xrom-manqan və nikel-kobalt kimi cütlüklərə ayırmağı məsləhət bilmişik.

Titan və vanadium. Dəmir qrupuna daxil olan bu iki element təbiətdə, demək olar ki, daima birlikdə rast gəlir. Titan, qabbroid massivlərinin əsas filizəməlgətirən elementi olmaqla yanaşı, digər maqmatik tiplərdə də müşahidə olunur. Dəmirli-maqneziumlu süxurəməlgətirən minerallarda səpələnmiş vəziyyətdə rast gəlməklə yanaşı, özünün ilmenit, sfen, rutil kimi xüsusi minerallarını yaradır. Bununla bərabər o, xromşpinelid, titanomaqnetit kimi filiz minerallarının da əsas qatışığını təşkil edir.

Ədəbiyyatda titanın ultrabazitlərdə paylanması barədə geniş məlumatın olmasına baxmayaraq, Kiçik Qafqaz istisnalıq təşkil etmişdir. Bəzi məlumatlara görə, bu süxurlarda titan müəyyən edilməmişdir. Təqdim olunan cədvəldən (1-ci cədvəl) göründüyü kimi, titanın minimal miqdarı (0,016%) apodunit serpentinitlərinin payına düşür. Elementin paylanma həddi çox dar çərçivədə (0,012-0,021) dəyişir. Statistik parametrlərinə görə, onun paylanması normal qanuna tabedir. Apoperidotit serpentinlərində

1-ci cədvəl

Dəmir qrupu elementlərinin müxtəlif tip serpentinitlərdə paylanması, cəki %-i ilə

Kompo-nentlər	Serpentinitlər	N	X_{min} - X_{max}	$\overline{X}$	S^2	V,%
TiO_2	Apodunit	18	0,012 – 0,021	0,016	0,02	32
	Apoperidotit	27	0,030 – 0,091	0,044	0,02	39
	Apopiroksenit	17	0,037 – 0,210	0,112	0,05	40
V_2O_5	Apodunit	21	0,0020 – 0,0037	0,003	0,02	18
	Apoperidotit	31	0,0021 – 0,0082	0,004	0,08	44
	Apopiroksenit	16	0,0040 – 0,0090	0,007	0,06	20
Cr_2O_3	Apodunit	22	0,28 – 0,80	0,40	0,13	69
	Apoperidotit	24	0,16 – 0,46	0,30	0,08	81
	Apopiroksenit	11	0,20 – 0,58	0,33	0,07	62
MnO	Apodunit	22	0,06 – 0,19	0,13	0,03	24
	Apoperidotit	22	0,07 – 0,21	0,14	0,06	27
	Apopiroksenit	22	0,11 – 0,22	0,15	0,01	19
NiO	Apodunit	26	0,28 – 0,47	0,40	0,02	14
	Apoperidotit	34	0,20 – 0,35	0,32	0,11	38
	Apopiroksenit	23	0,05 – 0,18	0,16	0,07	21
CoO	Apodunit	26	0,017 – 0,050	0,036	0,01	27
	Apoperidotit	34	0,014 – 0,035	0,022	0,07	30
	Apopiroksenit	23	0,013 – 0,029	0,018	0,03	19

Qeyd: N – analizlərin sayı, $\overline{X}$ – orta miqdar, X_{min} - X_{max} – miqdarların dəyişmə həddi, S^2 – dispersiya, V – variasiya əmsalı

titanın paylanma həddi nisbətən genişdir (0,030-0,091). Orta miqdarı da xeyli fərqlidir (0,044%). Paylanması normal qanuna müvafiq gəlir. Bu cəhətdən apopiroksenit serpentinitləri daha gözəçarpacaq dərəcədə fərqə malikdir. Belə ki, orta miqdar 0,112% olmaqla yanaşı, dəyişmə həddi də geniş miqyasdadır (0,037-0,210). Paylanmasının normal qanuna tabe olması bu süxurlara da aiddir.

Qeyd olunan qanunauyğunluğu baş tiplərin yarımtiplərində də aydın müşahidə etmək olar. Apoharsburgit serpentinlərdən apoverlitlərə keçdikdə elementin orta miqdarı xeyli dəyişir (0,040-0,090%) (2-ci cədvəl). Apolersolitlər orta mövqe tutur (0,052%). Bütün bu yarımtiplərdə titanın paylanması normal qanuna tabedir.

Titanın geokimyəvi xüsusiyyətini daha geniş şərh etmək üçün onun süxurəmələgətirən və digər nadir elemenntlərə bağlılığı araşdırılıb. Bu məqsədlə korrelyasiya əlaqələri öyrənilmişdir (3-cü cədvəl). Buradan aydın olur ki, titan ümumilikdə bu və ya digər elementə yaxınlıq göstərir. Məsələn, titanla silisium arasındakı əlaqənin güclü olması yüksək korrelyasiya əmsalında (+0,78) özünü büruzə verir. Təxminən buna yaxın əlaqə forması (+0,60) alüminiumla da mövcuddur. Titanla maqnezium arasında mənfi korrelyasiya əlaqəsi aşkarlanıb (R=-0,90).

Nadir elementlər sırasında titanla daha sıx əlaqəsi olan vanadiumdur. Burada korrelyasiya əmsalı 0,90-a bərabərdir. Tərs mütənasiblik isə nikel və kobalta məxsusdur, müvafiq olaraq R=0,89 və R=0,78. Xrom və manqan isə bu cəhətdən qeyri-müəyyənlik təşkil edir. Daha doğrusu, titanla onların arasındakı korrelyasiya əmsalı kritik qiymətdən (+0,40) xeyli aşağıdır.

Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, serpentinitlərdə maqneziumun miqdarı azaldıqca, titanın qiyməti qanunauyğun surətdə artır. Beləliklə, müxtəlif tip və növ serpentinitlərdə titanın paylanma qanunauyğunluğunun onların törəndiyi ilkin mineralların tərkibindən tam asılı olduğu aşkar gözə çarpır.

Qeyd etmək vacibdir ki, tədqiq olunan nadir elementlərdən, geokimyəvi davranışına görə, titana ən yaxın olanı vanadiumla yanaşı, həm də xromdur. Birinci ilə titan serpentinitlərin bütün tiplərində və yarımtiplərində sıx əlaqəyə malikdir. Xromla isə ikili münasibət mövcuddur. Hər iki elementin ilkin süxurəmələgətirən mineralların tərkibinə izomorf qatışıq kimi daxil olduğu halda, onlar müsbət əlaqə yaradırlar. Lakin oksifiliz şəraitində bu elementlərin əlaqəsi pozulur. Burada xromun öz fərdi mineralını – xromiti əmələ gətirmək qabiliyyəti əsas rol oynayır.

2-ci cədvəl

Aposerpentinitlərin yarımtiplərində dəmir qrupu elementlərinin paylanması, çəki %-i ilə

Kompo-nentlər	Serpentinitlər	N	X_{min} - X_{max}	$\overline{X}$	S^2	V,%
TiO_2	Apoharsburgit	29	0,031 – 0,051	0,040	0,056	14
	Apolersolit	21	0,036 – 0,054	0,052	0,027	15
	Apoverlit	18	0,070 – 0,098	0,090	0,045	16
V_2O_5	Apoharsburgit	30	0,022 – 0,0038	0,0030	0,025	19
	Apolersolit	20	0,0030 – 0,0052	0,0049	0,018	13
	Apoverlit	17	0,0068 – 0,0094	0,0080	0,009	17
Cr_2O_3	Apoharsburgit	32	0,10 – 0,40	0,20	0,060	30
	Apolersolit	28	0,14 – 0,50	0,30	0,090	33
	Apoverlit	22	0,22 – 0,48	0,38	0,030	19
MnO	Apoharsburgit	26	0,06 – 0,20	0,13	0,030	25
	Apolersolit	24	0,06 – 0,24	0,14	0,040	31
	Apoverlit	17	0,11 – 0,28	0,18	0,030	16
NiO	Apoharsburgit	38	0,21 – 0,50	0,35	0,070	21
	Apolersolit	32	0,16 – 0,37	0,28	0,040	14
	Apoverlit	22	0,07 – 0,12	0,09	0,020	13
CoO	Apoharsburgit	38	0,017 – 0,050	0,028	0,006	24
	Apolersolit	30	0,014 – 0,026	0,020	0,003	14
	Apoverlit	20	0,013 – 0,017	0,012	0,002	16

Beləliklə, müəyyən olunmuşdur ki, mürəkkəb petrokimyəvi xüsusiyyətə malik olan ultrabazitlərdə titanın taleyi əsasən dəmirlə bağlıdır. İlkin maqmada titanın konsentrasiyası kifayət olmadığı üçün o, öz fərdi mineralını əmələ gətirə bilməmişdir. Bu element ilkin substratın diferensasiyası boyu sonuncu minerallarda toplanmağa meyil göstərmişdir. Məhz bunun nəticəsidir ki, bütün serpentinlərdə titanın paylanma qanunauyğunluğu onların əmələ gəldikləri süxurların tərkibindən tam asılıdır.

Vanadium endogen proseslərdə tipik səpələnmə xüsusiyyətinə malikdir. Ultraəsasi süxurlarda geokimyəvi cəhətdən titana oxşar münasibət göstərir. İlkin maqmada az miqdarda olması və üçvalentli dəmir kimi aparıcı qohum elementlərin iştirakı səbəbindən ilkin maqmatik əmələgəlmələrin süxurəmələgətirən minerallarına izomorf qatışıq kimi daxil olur. Məhz bu səbəbdən də o, öz fərdi minerallarını əmələ gətirə bilmir.

Bir sıra alimlərin fikrincə, elementin geokimyəvi davranışı tipik peridotit formasiyası süxurlarına mənsubiyyətlik göstərir. Platindaşıyan süxurlarda isə elementin yüksək miqdarı onun titanomaqnetit mineralında toplanması ilə izah edilir.

Kiçik Qafqazın müxtəlif tip serpentinitlərində vanadium tam qeyri-bərabər paylanma xüsusiyyətinə malikdir (1-ci cədvəl). Belə ki, apodunit serpentinitlərində elementin orta miqdarı 0,003% olduğu halda, apoperidotit serpentinitlərində 0,004%-dir. Apopiroksenit serpentinitləri isə elementin daha yüksək miqdarına – 0,007% malikdir. Onu da qeyd etmək vacibdir ki, bu elementin müxtəlif tip serpentinitlərdə paylanma həddi çox dar çərçivədə dəyişir. Bu halı statistik əməliyyatlardakı dispersiyanın aşağı qiymətlərindən görmək olar. Variasiya əmsallarının qiymətinin 50%-dən aşağı olması isə elementin paylanmasının normal qanuna müvafiq gəlməsini göstərir. Bütün bu göstərilən faktiki materialların əsasında belə nəticəyə gəlmək olar ki, serpentinitlərin baş tiplərində bu element yalnız süxurəmələgətirən minerallarının tərkibində izomorf qatışıq kimi rast gəlir.

Bu mülahizənin daha etibarlı olmasını vanadiumun serpentinitlərin yarımtiplərində paylanma xüsusiyyətləri aşkar sübut edir (2-ci cədvəl). Belə ki, əgər vanadiumun maksimum miqdarı (0,009%) apoverlit serpentinitlərində toplanırsa, 0,004%-ə müvafiq gələn miqdar apoharsburgit serpentinitlərinə məxsusdur. Bu cəhətdən apolersolitlər aralıq mövqe tutur (0,005%). Təqdim olunan rəqəmlərdən göründüyü kimi, vanadiumun miqdarının tədricən qanunauyğun artması tendensiyası aposerpentinit yarımtiplərində də özünü göstərir. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, elementin bütün

növlərdə paylanma həddi çox dar çərçivədə dəyişir. Məhz bunun nəticəsidir ki, statistik göstəricilər bu elementin paylanmasının normal qanuna tabe olmasını göstərir. Eyni zamanda, bu qanunauyğunluqdan belə nəticə çıxarmaq olar ki, serpentinitlərdə vanadiumun paylanma xarakteri onun süxurəmələgətirən minerallardakı miqdarından asılıdır. İlkin lizarditlərdən, antiqoriti keçmək şərti ilə, xrizotil istiqamətində vanadiumun miqdarı artmağa meyillidir. Bu qanunauyğunluq digər regionların timsalında da təsdiq olunur. Vanadiumla aparıcı və nadir elementlər arasında korrelyasiya əlaqələri göstərir ki, o, alüminiumla (R=+0,69) və silisiumla tam müsbət korrelyasiya təşkil edirsə (R=+0,74), maqneziumla bu göstərici mənfi işarəlidir (R=-0,87). Daha doğrusu, serpentinitlərin maqneziumluğunun azalması bu elementin miqdarının çoxalması ilə nəticələnir.

Bütün bu dəlillərə və mövcud ədəbiyyat materiallarına istinad edərək, vanadiumun serpentinitlərdə paylanması barədə belə bir nəticəyə gəlmək olar ki, bu element göstərilən süxurlarda yalnız süxurəmələgətirən minerallarn tərkibinə izomorf olaraq, qohum elementləri əvəz etmək şərti ilə, daxil olur. Məhz bu səbəbdən də onun paylanması bu minerallarn faiz miqdarının nisbətindən asılıdır.

Xrom və manqan. Digər dəmir qrupu elementlərindən fərqli olaraq bu iki element özünəməxsus davranış qaydalarına malikdir. Onlar bu cəhətdən nəinki digərlərindən, hətta öz aralarında da kəskin fərqlənirlər. Belə ki, əgər xrom sırf mineraləmələgətirmə xüsusiyyətinə malikdirsə, manqan qeyri-adi formada bütün mineral birləşmələrində bərabər paylanma qabiliyyətlidir.

Xrom alpinotip ultrabazitlərin tipik aparıcı elementi hesab edilir. Onun serpentinitlərdə geokimyasına, digər elementlərə nisbətən, daha geniş diqqət yetirilmişdir. Bunun səbəbi, hər şeydən əvvəl, onunla bağlıdır ki, təbiətdə mövcud olan bütün xromit yataqları məhz yalnız ultrabazitlərlə bağlıdır.

Təqdim olunan cədvəldən (1-ci cədvəl) göründüyü kimi, serpentinitlərin baş tiplərində xromun paylanması qeyri-müəyyənlik təşkil edir. Belə ki, süxurəmələgətirən minerallarn nisbətindən asılı olaraq xromun faiz miqdarının dəyişməsi müşahidə edilmir. Bu halı ilk olaraq eyniadlı serpentinitdə xromun paylanma həddinin çox geniş intervalda dəyişməsi göstərir. Məsələn, apodunit serpentinitlərində bu rəqəm 0,28-0,80% təşkil edir. Eyni vəziyyəti apoperidotit (0,16-0,46%) və apopiroksenit (0,20-0,58) haqqında da demək olar. Bundan başqa, sadalanan serpentinitlərdə xromun orta miqdarının qeyri-ardıcıl (0,40; 0,30; 0,33%) paylanması da bu qənaətə gəlməyə əsas verir.

Bu faktlar variasiya əmsallarının hər üç halda 50%-dən yüksək qiymətə malik olmaları ilə fikrimizin obyektivliyini təsdiq edir (müvafiq olaraq 69; 81 və 62%).

3-cü cədvəl

Petrogen və nadir elementlər arasında korrelyasiya əlaqəsi, $R_{2/\delta}$=0,40, n=56

Komponentlər	SiO_2	Al_2O_3	Fe_2O_3	MgO	TiO_2	V_2O_5	Cr_2O_3	MnO	NiO	CoO
SiO_2	1,00	0,52	0,39	-0,80	0,78	0,74	-0,25	0,40	-0,75	-0,58
Al_2O_3		1,00	0,32	-0,68	0,60	0,69	0,10	0,40	-0,59	-0,63
Fe_2O_3			1,00	0,30	0,33	-0,20	0,40	0,32	-0,25	-0,22
MgO				1,00	-0,90	-0,87	-0,28	-0,33	0,92	0,87
TiO_2					1,00	0,90	0,23	0,26	-0,89	-0,78
V_2O_5						1,00	-0,20	0,38	-0,88	-0,79
Cr_2O_3							1,00	-0,22	0,12	0,18
MnO								1,00	0,38	0,27
NiO									1,00	0,80

Əldə edilmiş dəlillər göstərir ki, əgər apodunit serpentinitlərində xrom əsasən aksessor xromitin tərkibinə daxil olursa, apopiroksenit serpentinitlərində süxurəmələgətirən mineralların tərkibində izomorf qatışıq təşkil edir. Deməli, apodunit serpentinitlərində xromun toplayıcısı aksessor xromit olduğu halda, apopiroksenitlərdə bu rolu xrizotil mineralı daşıyır. Aparılan tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, müxtəlif tip serpentinitlərdə xromun paylanma qanunauyğynluğu ikili xarakter daşıyır: əgər xrom ilk olaraq filiz-oksid yaratmaq meyilli olursa, maqmatik prosesin sonunda miqdarının xeyli azalması şəraitində süxurəmələgətirən minerallarda izomorf qatışıq şəklində rastlaşır. Serpentinitlərin yarımtiplərində xromun paylanma qanunauyğunluğu bir qədər aydın şəkil alır. Burada xromun paylanma həddi xeyli dar çərçivədə dəyişir (apoharsburgitdə 0,10-0,40%; apolersolitdə 0,14-0,50%; apoverlitdə isə 0,22-0,48%). Elementin orta miqdarı da göstərilən istiqamətdə tədricən artır (müvafiq olaraq: 0,20; 0,30; 0,38%). Digər tərəfdən, xromun paylanması normal qanuna tabe olur (V=30; 33 və 19%), yəni hər üç halda 50%-dən aşağıdır. Bu hal onu izah edir ki, apoperidotit serpentinitlərdə aksessor xromit iştirak etmədiyi üçün (yaxud çox cuzi olduğuna görə) element yalnız süxurəmələgətirən minerallarda paylanır.

Şərh etdiyimiz fikirin daha etibarlı olması xromla digər elementlər arasında mövcud olan korrelyasiya əmsallarının qiymətləri timsalında da öz əksini tapır (3-cü cədvəl). Buradan göründüyü kimi, bu əmsal yalnız üçvalentli dəmirlə kritik qiymətə müvafiq gəlir – $R_{2/\beta\ Cr\text{-}fe}$= 0,40. Digər elementlər üçünsə bu qiymət məna əmsalından xeyli aşağıdır və deməli, müxtəlif tip serpentinitlərdə xromla heç bir elementin arasında korrelyasiya mövcud deyil.

Bütün faktiki materiallar serpentinitlərdə xromun paylanma qanunu haqda belə fikirə gəlməyə imkan verir ki, maqmatik prosesin ilkin mərhələsində xrom fərdi mineralı – xromit halında formalaşmağa meyil göstərirsə, son olaraq miqdarının kəskin azalması və daha mürəkkəb minerallarn peyda olması sayəsində süxurəmələgətirən minerallarn tərkibinə izomorf qatışıq kimi daxil olur.

Apoperidotit serpentinitlərində alüminium, titan və xrom arasında düz mütənasiblik mövcuddur ki, bunu apodunitlərə aid etmək mümkün deyil. Serpentinitlərin hər iki yarımtipində dəmirlə maqnezium arasında tərs mütənasiblik mövcuddur. Dəmirlə xrom arasındakı mütənasiblik isə apodunit serpentinitlərdə tərs, apoperidotit serpentinitlərdə isə düzdür. Məhz xromitin tərkibindəki elementlərin paylanma nisbətindən asılı olaraq, onlar alümino-xromit, subferroxromit və subferroalüminoxromit növlərinə ayrılırlar. Müxtəlif tip serpentinitlərin mikroskopik tədqiqi göstərir ki, onların xromitlərinin tərkibində bir sıra silikat minerallarının daxil-olmalarına rast gəlinir. Bu hal onların hiperbazit assosiasiyası süxurlarının genişdiapazonlu əməlgəlmə mərhələləri boyu formalaşmasına sübutdur. Sonradan bu süxurlar metamorfizləşərkən xrom-şpinelidlər də dəyişilir. Daha doğrusu, ilkin lizarditləşmə zamanı nisbi sabitlik saxlansa da, antiqoritləşmə və xrizotilləşmə nəticəsində onlar parçalanır və yenidən paylanmaya məruz qalırlar. Xrom-şpinelidlərin maqnetitləşmə prosesini də buraya aid etmək olar.

Manqan Yer qabığında geniş yayılmış ağır metallara daxildir. O, Mendeleyev cədvəlində dəmir qrupu elementlərini şərti olaraq iki müxtəlif xüsusiyyətli yarımqrupa ayırır: bir tərəfdə titan və vanadium, digər tərəfdə isə, kobalt və nikel. Müxtəlifvalentli manqan ionları müvafiq şəraitlərdə ya özlərinin fərdi minerallarını əmələ gətirir, yaxud da çoxsaylı mineral assosiasiyalarının kristal şəbəkələrinə daxil olurlar. Məhz bu səbəbdəndir ki, klarkının qiyməti elə də yüksək rəqəmlə ifadə olunmadığından, metal müvafiq konsentrasiyalı yığıma malik deyil.

Manqanı dəmir qrupu elementlərindən və ümumilikdə bütün digər elementlərdən fərqləndirən ən başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, demək olar ki, bütün intruziv süxurların baş tiplərində bərabər, yaxud çox yaxın miqdarda paylanır. Məhz bu səbəbdəndir ki, onun geokimyasına çox az miqdarda elmi-tədqiqat işləri həsr edilmişdir. Bir qayda olaraq silikat analizlərinin dəlilləri əsas götürülür. Bununla yanaşı, bəzi tədqiqatçıların fikrincə, bazalt maqmasının məhsulu olan ultrabazitlərə nisbətən hiperbazit formasiyasında bu element daha geniş yayılmışdır. Yuxarıda təqdim olunan cədvəldən (1-ci cədvəl) göründüyü kimi, manqan bütün tip apohiperbazit serpentinitlərində bərabər miqdarda paylanmışdır: apodunit serpentinitlərində 0,13%, apoperidotit serpentinitlərində 0,14% və apopiroksenit serpentinitlərində 0,15%. Elementin minimum miqdarı 0,06%, maksimum miqdarı isə 0,22%-ə bərabərdir. Bu rəqəmlərdən birincisi apodunit serpentinitlərinə, ikincisi isə apopiroksenit serpentinitlərinə aiddir. Bu ənənə, çox zəif olsa da, elementin miqdarının peridotit maqmasının son məhsullarına doğru artma meyilli olduğunu göstərir. Onu da qeyd etmək vacibdir ki, bütün hallarda manqanın dəyişmə həddi çox dar çərçivədə baş verir. Göstərilən qaydaya apoperidotit növ serpentinitlərində daha aşkar riayət olunur. Elementin orta miqdarı apohars-

burgit serpentinitlərdə 0,13%, apolersolit serpentinitlərdə 0,14% və apoverlitlərdə 0,18%-dir. Minimum miqdarı 0,06%, maksimumu isə 0,28%-dir.

Statistik parametrlərdən göründüyü kimi, bütün hallarda manqanın paylanması normal qanuna tabedir, yəni manqanın bütün tip və yarımtip aposerpentinitlərdə paylanması ardıcıl qanunauyğunluğa tabedir. Bütün bu deyilənlər manqanın geokimyası haqqında olan fikirləri bir daha təsdiq edir, yəni maqmanın diferensiasiyası boyu manqan tədricən cüzi miqdarda artmağa meyil göstərir. Lakin bu artımın həcmi onun fərdi mineralını əmələ gətirməyə imkan vermədiyindən, süxurəmələgətirən minerallarn kristal şəbəkəsinə izomorf qaydada daxil olur.

Bir sıra tədqiqatçılar tərəfindən müəyyən edilmişdir ki, manqanın ikivalentli dəmirə olan nisbəti sabit qiymətə malik olub 0,01-lə 0,1 arasında dəyişir. Tədqiq olunan serpentinitlərdə bu rəqəm 0,014-0,018-dir. Qeyd etməyi vacib bilirik ki, dəmirlə manqan arasında mövcud olan korrelyasiya əmsalı ilkin süxurlarda +0,73 olduğu halda, serpentinləşmə nəticəsində bu asılılıq pozulur, yəni burada həmin əmsal kritik qiymətə (+0,34) yaxınlaşır ki, bu da serpentinləşmə nəticəsində dəmirin bütövlükdə üçvalentli hala keçməsini göstərir.

Manqanın Kiçik Qafqazın serpentinitlərində olan orta miqdarı Ural serpentinitləri ilə eynilik təşkil edir (0,11%).

Nikel və kobalt. Dəmir qrupu elementlərindən daima birgə rast gələnlər nikel və kobaltdır. Bütün geoloji əməlgəlmələrdə bu elementlərin nisbəti (10:1) sabitdir ki, bu əlamətdən də geokimyəvi meyar kimi istifadə olunur.

Nikel xromla yanaşı ultrabazitlərin aparıcı elementi sayılır. Maqmatik süxurlarda nikelin ən yüksək miqdarı məhz ultrabazitlərə xasdır. Bu süxurlarda o, əsasən, dəmirli-maqneziumlu silikat minerallarında maqneziumu izomorf əvəz edir.

Alınan nəticələr bir daha göstərir ki, ultrabazitlərdə maqneziumluluğun azalması ilə yanaşı, nikelin də miqdarı qanunauyğun surətdə azalır. Daha doğrusu, dunit-peridotit-piroksenit sırasında nikelin orta miqdarı müvafiq olaraq 0,37; 0,29; 0,09%-dir. Bu istiqamətdə süxurəmələgətirən minerallarn faiz nisbətindən asılı olaraq elementin miqdarı da qanunauyğun dəyişir. Buradan aşkar olunur ki, tədqiq olunan süxurlarda nikel yalnız dəmirli-maqneziumlu minerallarn kristal şəbəkəsinə izomorf şəkildə daxil olur. Digər tərəfdən, əgər nikellə maqnezium arasında düz mütənasiblik mövcuddursa, dəmirlə bu münasibət əks istiqamətə yönəlir. Bu deyilən qanunauyğunluq öz əksini nikel-kobalt nisbətlərində də göstərir. Daha doğrusu, dunit-peridotit-piroksenit istiqamətində nisbi qiymət: 15,6 → 13,1 → 5,2 kimi ifadə olunur.

Tədqiq olunan serpentinitlərdə nikelin paylanması ilkin süxurlarda mövcud olan qanunauyğunluğu təkrarlayır. Verilmiş cədvəldən (1-ci cədvəl) göründüyü kimi, elementin maksimum orta qiyməti – 0,40% apodunit serpentinitlərinə aiddir. Tərəddüdetmə həddi də nisbətən geniş miqyasda dəyişir (0,28-0,47%). Məhz ən yüksək faiz miqdarı da apodunit serpentinitləri üçün səciyyəvidir. Statistik göstəricilər nikelin apodunit serpentinitlərdə paylanmasının normal qanuna tabe olmasını əks etdirir. Daha doğrusu, belə mülahizə yürütmək olar ki, serpentinitləşmə prosesi sayəsində ilkin silikat minerallarının tərkibindəki nikel bütövlükdə serpentin mineralının tərkibinə köçürülmüşdür.

Bu qanunauyğunluq apoperidotit serpentinitlərinə də aiddir. Burada nikelin konsentrasiyası 0,20-0,35 arasında dəyişərək, orta hesabla 0,32% təşkil edir. Eyni zamanda, onun paylanması normal qanunla tənzimlənir. Apopiroksenit serpentinitlərində elementin miqdarı, gözlənildiyi kimi, minimum həddədir – 0,07%. Məhz minimal miqdar da – 0,05% bu süxurlara aiddir.

Qeyd etdiyimiz kimi, ultrabazitlərdə kobaltın geokimyəvi xüsusiyyətləri nikelinkinə çox bənzəsə də, dəqiq təhlillər göstərir ki, xalkofilliyə bir qədər meyil göstərməsi ilə fərqlənir. Bütün maqmatik süxurlar içərisində onun ultrabazitlərdə daha yüksək paylanma qabiliyyətinə malik olması danılmaz faktdır. Geniş tədqiqatlar sayəsində müəyyən olunmuşdur ki, müxtəlif regionların ultrabazitlərində kobaltın orta miqdarı sabit qiymətə malik olub 0,015-0,020% arasında dəyişir.

Kiçik Qafqazın ultrabazitlərinin tədqiqi də bu faktın reallığını bir daha təsdiq edir. Həmçinin müəyyən edilmişdir ki, süxurların əsasiliyi azaldıqca elementin miqdarı da paralel olaraq azalır. Bu da bir faktdır ki, nikelə nisbətən bu xüsusiyyət bir qədər ləng baş verir. Bu halı sübut edən faktlardan biri də odur ki, əgər dunitlərdə Ni/Co nisbəti 15-ə bərabərdirsə, piroksenitlərdə bu rəqəm 5-ə kimi azalır.

Tədqiqat aparılan regionun serpentinitlərində kobaltın davranışı ilkin süxurlarındakına çox bənzəyir. 1-ci cədvəldən göründüyü kimi, bu elementin maksimum orta qiyməti apodunit serpentinitlərinə aiddir (0,036%). Elementin 0,050%-ə bərabər olan maksimum miqdarını da bu serpentinitlər daşıyır. Kobaltın miqdarının tərəddüd həddi bir qədər geniş diapazona malikdir (0,017-0,050%). Apodunit serpentinitlərdə kobaltın miqdarının dispersiyası və variasiya əmsalının xeyli aşağı olması göstərir ki, onun paylanması normal qanunla tənzimlənir.

Apoperidotit serpentinitlərində kobaltın orta miqdarı bir qədər aşağı qiymətə malikdir – 0,022%. Tərəddüdetmə həddi isə 0,014-0,035% arasında dəyişir. Apodunitlərdə olduğu kimi, burada da statistik parametrlərin dəlilləri paylanmanın normal qanuna tabeliyini təsdiqləyir.

Serpentinitlərin əsasiliyinin zəiflədiyi istiqamətdə kobaltın da miqdarca azalması faktı aşkardır. Belə ki, məhz onun ən aşağı qiyməti apopiroksenit serpentinitlərinə məxsusdur. Elementin miqdarı 0,013-0,029% arasında tərəddüd edir. Kobaltın minimum orta qiyməti də apopiroksenit serpentinitlərinə aiddir. Digər növ aposerpentinitlər kimi bu kəmiyyət burada da normal qanuna tabedir.

Təqdim olunan bütün dəlillərdən görünür ki, Kiçik Qafqazın serpentinitlərində kobaltın orta miqdarı onun Yer qabığındakı klarkına çox yaxındır. Digər regionların serpentinitləri ilə müqayisədə isə bir qədər fərq müşahidə olunur. Lakin bu fərq nəzərəçarpacaq dərəcədə yüksək deyil. Kobaltla digər elementlər arasında hesablanmış korrelyasiya əmsalından görünür ki, o, maqneziumla müsbət (+0,87), alüminium və silisiumla isə mənfi qiymətə (müvafiq olaraq – 0,63 və -0,58) malikdir. Dəmir qrupu elementlərindən nikellə daha sıx əlaqəyə malikdir (+0,80). Bu cəhətdən titan və vanadium əks mövqe tutur (-0,78; -0,79).

Kobaltın müxtəlif tip serpentinitlərdə paylanma qanunauyğunluğunu aposerpentinit yarımtiplərində də müşahidə etmək mümkündür. Belə ki, elementin maksimum miqdarı – 0,050% apoharsburgit serpentinitlərinə aiddirsə, minimum miqdarı – 0,013% apoverlit serpentinitlərində müşahidə olunur. Bu faktı kobaltın orta miqdarları timsalında aşkar müşahidə etmək olur: apoharsburgit serpentinitləri – 0,028%, apolersolit serpentinitləri – 0,020%, apoverlit serpentinitlərində isə – 0,012%.

Təqdim olunan dəlillərdən göründüyü kimi, kobalt, müxtəlif yarımtip serpentinitlərdə paylanmasına görə, özünün nikelə daha yaxın münasibət göstərməsini büruzə verir. Bununla yanaşı, nikeldən fərqli olaraq, onun ilkin dəmirli-maqneziumlu silikatların daha əsasi növlərində toplanması da faktdır.

Dəmir qrupu elementlərinin serpentinitlərdə geokimyəvi davranışı barədə, tədqiqatların yekunu olaraq, belə qənaətə gəlmək olar ki, bu elementlər geokimyəvi cəhətdən eyni bir qrupa daxil olmalarına baxmayaraq, müxtəlif növ apohiperbazit serpentinitlərdə onların paylanma qanunauyğunluqları prosesin gedişi nəticəsində öz aralarında müəyyən assosiasiyalar təşkil edirlər. Belə ki, əgər xrom, kobalt və nikel apodunit serpentinitlərində toplanmağa meyillidirlərsə, titan və vanadium apopiroksenit serpentinitlərində toplanmağa meyil göstərirlər. Bundan başqa, əgər dəmir qrupu elementlərinin əksəriyyəti serpentin minerallarının tərkibinə izomorf daxil olurlarsa, xrom, eyni zamanda, özünün xüsusi mineralı olan aksessor xromit formasında da təzahür edir. Digər tərəfdən, manqanın davranışındakı qeyri-adilik nəzəri cəlb edir. Serpentinitlərin mineraloji tərkibindən asılı olmayaraq, o, bütün növlərdə stabil miqdarı ilə fərqlənir. Əgər nikel və kobalt daha çox maqneziumlu silikatlara meyillidirlərsə, titan, vanadium və xrom alüminium və kalsiumla zəngin süxurəmələgətirən minerallarda üstünlük təşkil edir. Deməli, dəmir qrupu elementlərinin bu qayda ilə paylanması, onların aparıcı elementlərlə olan münasibətlərinin nəticəsi kimi qiymətləndirilərək, indikator rolunu daşıdıqlarını aşkar göstərir.

ƏDƏBİYYAT

BABAZADƏ,V.M. 2012. Faydalı qazıntıların geologiyası. II hissə. Bakı. 489 s.

АБДУЛЛАЕВ, З.Б., ГУСЕЙНОВА, С.Ф. 1987. Геохимия гипербазитов Малого Кавказа. Элм. Баку. 200 с.

АБДУЛЛАЕВ, З.Б. 2007. Альпинотипные гипербазиты Азербайджана. Nafta-Press. Баку. 295 с.

БОГДАНОВ, Ю.А., БОРТНИКОВ, Н.С., ГУРВИЧ, Е.Г. и др. 2000. Гидротермальные поля, приуроченные к серпентинитовым массивам Срединно-Атлантического хребта. Металлогения древних и современных океанов. УрО РАН. Миас.49-53.

ВЕЛИНСКИЙ, В.В., ТРЕТЬЯКОВ, Г.А., СИМОНОВ, В.А. 2004. Физико-химическое моделирование процесса серпентинизации и роль океанических серпентинитов в гидротермальном рудообразовании. *Известия Томского политехнического университета,* 307, 1.

ГЛАЗУНОВ, О.М. 1981. Геохимия и рудоносность гипербазитов и габброидов. Наука. Новосибирск. 190 с.

ШТЕЙНБЕРГ, Д.С., ЧАЩУХИН, И.С., КОВАЛЬЧУК, А.И. 1991. Океанические воды – агент серпентинизации альпинотипных ультрамафитов континентов. *ДАН СССР,* 320, 3, 713-715.

Məqaləyə akademik V.M.Babazadə rəy vermişdir.

ТЕОРИЯ И ПРАКТИКА РАЗРАБОТКИ МЕСТОРОЖДЕНИЙ НЕФТИ И ГАЗА

© З.Я.Аббасов, В.М.Фаталиев, 2015

ФИЗИКО-ТЕРМОДИНАМИЧЕСКИЕ АСПЕКТЫ ВЛИЯНИЯ ОСТАТОЧНОЙ ВОДЫ НА ФАЗОВЫЕ ПРЕВРАЩЕНИЯ В ГАЗОКОНДЕНСАТНЫХ СИСТЕМАХ

З.Я.Аббасов, В.М.Фаталиев

Институт геологии и геофизики НАН Азербайджана
Az 1143, Баку, просп. Г.Джавида, 119

В статье представлены основные результаты аналитических и экспериментальных исследований в модели пласта и в бомбе pVT по изучению влияния остаточной воды на показатели процесса фазовых превращений в газоконденсатных системах. При этом показано, что в зависимости от физико-термодинамических условий в пласте находящаяся в нем в жидком, паровом и связанном виде вода по-разному влияет на фазовые показатели газоконденсатных систем.

В результате этих исследований расширены представления о механизме влияния воды на данный процесс, на основании чего выявлены характерные особенности поведения газоконденсатных систем в пластовых условиях в ее присутствии.

Известно, что в газоконденсатных, а также других углеводородных залежах определенную часть пористой среды занимает связанная или остаточная вода (Гриценко и др., 1995; Закиров и др., 1984; Shinta, Furoozabadi, 1997). Такие пластовые воды из-за наличия тесной связи с поверхностью пород считаются неподвижными с точки зрения гидродинамических аспектов, но они могут существенно влиять на фазовое поведение системы в пластовых условиях, а также на показатели эксплуатации газоконденсатной залежи. Оценка влияния остаточной воды на пластовые процессы производится экспериментально. Для этого нами были проведены исследования как в pVT бомбе, так и модели пласта.

В экспериментах в качестве проб использовался пластовый газ состава в моль.%: метан – 93,5; этан – 4,21; пропан – 1,24; бутаны: изо- – 0,38, норм. – 0,27; сумма: пентанов – 0,14, гексанов – 0,04; углекислый газ – 0,22 и конденсат плотностью 745,7 кг/м^3 из скважины №46 глубокозалегающей газоконденсатной залежи VII горизонта месторождения Булла-дениз. При этом конденсатосодержание системы и температура опытов во всех экспериментах принимались постоянными и имели значения 150 г/м^3 и 80^{0}C соответственно.

Принимая во внимание ожидаемое значение давления начала конденсации около 25 МПа, давление системы в pVT установке поднималось до 30,0 МПа, учитывая ее технические возможности. Все эксперименты проводились по стандартной методике (Зотов и Алиев, 1980).

В дальнейшем с шагом 6,0 МПа давление в системе снижалось (температура постоянна – 80^{0}C) до 6,0 МПа и проводились соответствующие лабораторные измерения, в результате чего определялось количество выделившегося газа и конденсата. Эти исследования повторялись и для систем, содержащих в своем составе 10, 20, 30, 40% воды. Результаты pVT исследований приведены в таблице.

Как видно из таблицы, рост содержания воды в системе приводит к уменьшению количества добываемого конденсата при увеличении объема газа в пределах рассматриваемого шага давления.

График зависимости конечной величины коэффициента конденсатоотдачи от содержания воды в процессе дифференциальной конденсации системы в pVT бомбе представлен на рис.1.

Как видно из рис.1, рост количества воды в газоконденсатной системе отрицательно влияет на коэффициент конденсатоотдачи залежи, то есть приводит к его снижению, и эта тенденция принимает различный характер в зависимости

от содержания воды. Так, наличие воды до 20% в системе резко отражается на значении коэффициента конденсатоотдачи, снижая его на 4,0%, а дальнейший рост количества воды (более 20%) снижает интенсивность этого влияния и уменьшает конденсатоотдачу на 3,0%.

Таким образом, рост содержания воды в составе системы от нуля до 40% (при постоянной температуре 80^0C) приводит к уменьшению коэффициента конденсатоотдачи на 7,0 %.

Для сравнения результатов на pVT бомбе использовались экспериментальные данные в пористой среде. Эти эксперименты проводились в модели пласта (Абасов и др., 2013) и ее геометрические размеры определялись по (Эфрос, 1963; Kokal et al., 2000) с использованием термодинамических критериев подобия. Длина пластовой модели составляла 0,85 м, площадь поперечного сечения ~ $4{,}415 \times 10^{-3}$ м^2. Остаточная вода в модели пласта создавалась путем насыщения его водой и дальнейшего ее вытеснения азотом. При этом регулировалось и содержание остаточной воды в модели пласта.

Сведения о количестве добытого газа и конденсата при различных шагах давления в бомбе pVT

№	Вода, %	Давление в интервалах, МПа							
		30-24		24-18		18-12		12-6	
		газ, 10^{-3}м^3	конден-сат, 10^{-6}м^3	газ, 10^{-3}м^3	конден-сат, 10^{-6}м^3	газ, 10^{-3}м^3	конден-сат, 10^{-6}м^3	газ, 10^{-3}м^3	конден-сат, 10^{-6}м^3
1	0	19,0	2,5	25,5	3,0	29,2	1,6	29,6	0,5
2	10	24,3	1,9	36,3	2,6	39,4	1,8	41,1	0,3
3	20	26,5	1,9	38,6	2,6	39,3	1,4	41,7	0,3
4	30	27,5	1,7	39,2	2,4	40,8	1,4	42,0	0,3
5	40	28,6	1,6	39,6	2,2	42,3	1,4	42,6	0,3




Рис. 1. Зависимость коэффициента конденсатоотдачи от содержания воды

Модель насыщалась газоконденсатной смесью при конденсатосодержании 150г/м^3. Показатели процесса дифференциальной конденсации газоконденсатной системы изучались в интервалах давления 30,0-6,0 МПа при шаге его снижения 6,0 МПа.

Пользуясь результатами, приведенными в (Абасов и др., 2013), было изучено влияние содержания остаточной воды на конденсатоотдачу при постоянных значениях плотности стабильного конденсата – 745,7 кг/м^3, температуре – 80^{0}C, пористости – 0,2 и конденсатосодержании – 150г/м^3. График зависимости изученного процесса представлен на рис.1.

Как видно из полученных результатов (рис.1), в отличие от бомбы pVT наличие воды в пористой среде независимо от ее количества отрицательно влияет на величину коэффициента конденсатоотдачи. Это влияние имеет различный характер в зависимости от степени насыщенности пласта водой. Так, если при водонасыщенности пористой среды 0-15% конденсатоотдача снижается на 1,5%, то в интервале ее изменения 15-30% эта величина возрастает почти вдвое и составляет 2,7%. А при обводненности от 0 до 40% конденсатоотдача снижается с 26,0 до 19,3%.

Учитывая приведенные выше результаты, выясним механизм влияния фазовых превращений газоконденсатных систем на показатели процесса при наличии в их составе остаточной воды, для чего обратимся к результатам экспериментальных исследований, полученных в pVT бомбе. Как видно из результатов наблюдений, наличие 10% воды в системе значительно влияет на оседание углеводородного конденсата в pVT бомбе, а при дальнейшем повышении содержания воды в системе ее влияние ослабевает. Этот результат не противоречит классическим законам термодинамики. Так как с повышением количества воды в составе газоконденсатной системы вода постепенно начинает испаряться под воздействием давления и температуры, то после истечения некоторого времени в соответствии с парциальным давлением воды в системе наступает равновесие между фазами. Это означает, что в составе газовой фазы при заданном давлении и температуре может находиться определенное количество водяного пара, максимальное количество которого определяется абсолютной влажностью газовой фазы. При этом дальнейший рост количества воды в системе приводит к увеличению содержания жидкой фазы (вода+конденсат). Сказанное подтвердилось визуально в процессе проведения экспериментов в pVT сосуде при условиях: P = 30,0 МПа, t = 80^{0}C. Значит, при содержании 10% воды в системе насыщенность газовой фазы водяным паром достигает своей максимальной величины, что приводит к значительной потере конденсата.

При объяснении механизма конденсатных потерь только влиянием количества водяных паров в газовой фазе мы должны были бы ожидать дальнейший их рост с увеличением содержания водяной фазы в процессе дифференциальной конденсации системы, которая должна была бы привести только к росту количества жидкой фазы, включая и воду. Однако в реальных экспериментах это не происходит, так как увеличение количества свободной воды в системе повышает в определенной мере конденсатные потери. В результате содержание жидкой фазы, приходящейся на единицу объема газовой фазы, тоже возрастает. В проведенных нами экспериментах в pVT бомбе рост содержания воды в системе в интервале 0-40% приводит к повышению названного выше параметра от 150 г/м^3 до 1316,3 г/м^3.

Как было отмечено, несмотря на слабую растворимость углеводородных газов в воде, присутствие воды интенсифицирует ретроградные потери конденсата. Кроме того, как показано в (Абасов и др., 2006; Абасов и др., 2013), наличие в составе углеводородной системы хорошо растворимых компонентов снижает количество ретроградных потерь конденсата, в то же время потеря таких компонентов за счет их растворения в воде интенсифицирует ретроградные потери конденсатов.

Как видно из рис.2, в рассмотренном интервале давлений с ростом остаточной водонасыщенности пласта количество метана (C_1) возрастает, а содержание сравнительно более тяжелых компонентов в газовой фазе снижается. Для насыщения водой в количестве 40% такой пористой модели пласта потребуется $0{,}3 \times 10^{-3}$м^3 воды, что, в свою очередь, резко изменит в системе соотношение жидкость-газ. На основании анализа экспериментальных данных показано, что при пористости пласта, равной 0,2, рост содержания остаточной воды от 0 до 40% повышает объем жидкой фазы (воды), приходящийся на единицу объема газовой фазы от 150 г/м^3 до 2937 г/м^3. А это может оказать существенное влияние на фазовое соотношение системы и распределение жидких и газовых компонентов в пласте.




Рис. 2. Изменение состава газа в интервале давлений 30,0-24,0 МПа в зависимости от водонасыщенности пласта. Здесь t – 100°C, пористость – 0,2, конденсатосодержание – 150г/м^3, ρ – 720 кг/м^3

Кроме того, из-за уменьшения содержания тяжелых газовых компонентов в системе в результате их растворения в возрастающей водной фазе (0-40%) жирность добываемого газа, составляющая отношение суммы этана, пропана, бутанов и пентанов (C_{2+}) к содержанию метана (C_1), т.е. C_{2+}/C_1, должна иметь тенденцию к снижению.

С ростом количества остаточной воды независимо от интервала давления жирность газа, добываемого из пласта, снижается. Одновременно становится очевидным, что степень снижения жирности добываемого газа находится в зависимости от давления, так как с его ростом количество растворенного в воде газа тоже возрастает. Так, если в интервале давлений 30,0-24,0 МПа при росте обводненности пористой среды 0-40% жирность газа уменьшается от 0,205 до 0,162, т.е. разница составляет 0,043 или 21%, то в интервале давлений 12,0-6,0 МПа она составляет всего 0,005 или около 1,5%.

Приведенные выше факты означают, что наличие воды в составе углеводородной смеси влияет на фазовое соотношение систем в двух направлениях:

1) испарение воды в процессе восстановления термодинамического равновесия системы и наличие водяного пара в газовой фазе приводят к образованию новой с более высокими критическими параметрами смеси и, как следствие этого, к сокращению срока разработки “залежи” в однофазной области в результате повышения давления начала ретроградной конденсации;

2) возрастание содержания воды в системе и вследствие этого образование воды в виде жидкой фазы приводит к резкому изменению фазового соотношения жидкость-газ и интенсификации процесса ретроградной конденсации за счет частичной потери тяжелых компонентов углеводородов, обладающих хорошей растворимостью в воде.

Влияние наличия воды в составе системы на показатели процесса дифференциальной конденсации в пористой среде существенно отличается от таковой в pVT бомбе, что можно представить так:

1. Рост количества воды в пористой среде от 0 до 10% ее порового объема является причиной увеличения конденсатных потерь, но их количество небольшое, а дальнейшее повышение содержания остаточной воды приводит к более существенному его влиянию на показатели про-

цесса в целом. Отметим, что известны некоторые работы (Гриценко и др., 1995), где указывается положительное влияние до 15% остаточной воды на коэффициент углеводородоотдачи залежи. В частности, в (Гриценко и др., 1995) показано, что водонасыщенность пористой среды до 15% не влияет на фазовые показатели газоконденсатной системы, что объясняется обволакиванием водой частиц песчинок и тем самым снижением сорбционных процессов. Но в наших экспериментах, как было показано выше, любое количество остаточной воды в пористой среде обязательно приводит к снижению величины конденсатоотдачи залежи за счет потерь конденсата в пласте, потому что часть воды, введенной в углеводородную систему, испаряется в соответствии с давлением и температурой для восстановления термодинамического равновесия. Поэтому отрицательное влияние на пластовые процессы остаточной воды будет неизбежным. Это означает, что остаточная вода имеет тесную связь с песчинками пласта и слабо участвует в процессе частичного испарения за счет поверхностных и адсорбционных сил или же вовсе не принимает в нем участия. Известно (Гиматудинов, 1971), что толщина водяной пленки на песчинках составляет $5x10^{-8}$ м и при пористости 0,1912 (самое низкое значение) и удельной поверхности 660908 мг/м^3 (самое высокое значение) количество связанной воды составляет 3,29% от объема пористой среды. Но здесь не исключается возможность роста количества остаточной воды за счет сорбционных процессов в пористой среде. Это свидетельствует о том, что из-за наличия тесной связи части остаточной воды с поверхностью песчинок она почти не участвует в термодинамических процессах. С другой стороны, из-за того, что остаточная вода, обволакивающая поверхности песчинок, создает определенный барьер между углеводородными компонентами и породой, ослабевает влияние пористой среды на процесс ретроградной конденсации системы. По этой причине в экспериментах наблюдалось слабое влияние водонасыщенности пористой среды в интервале до 10% на фазовые показатели газоконденсатной системы.

2. Наличие более 10% воды в пористой среде приводит к более интенсивной потере конденсата. Согласно приведенным в п.1 суждениям, наличие более 10% воды в пористой среде способствует образованию "свободной" воды, так как после достижения критической величины ее количества не хватает для создания должных связей с поверхностью пород, и поэтому, заполняя пустоты в пласте, она находится в свободном состоянии. После этого вода, активно участвуя в процессах растворения и испарения, ведет себя почти как в пустом сосуде и имеет соответствующие этому физико-термодинамические соотношения относительно углеводородной части системы.

По результатам изучения процесса дифференциальной конденсации системы в pVT бомбе и в модели пласта показано, что одним из важных моментов этого процесса является то, что при снижении давления, другими словами, при создании новых термодинамических условий, часть свободной воды в силу восстановления термодинамического равновесия системы беспрерывно испаряется и выносится отбираемым газом. Этот процесс, как показывает анализ, может иметь как положительное, так и отрицательное влияние на величину коэффициента конденсатоотдачи.

Отрицательное влияние на коэффициент конденсатоотдачи испарения воды при дифференциальной конденсации системы покажем на примере двух случаев:

1) в процессе дифференциальной конденсации (температура постоянная) при снижении давления находящаяся в жидком состоянии вода испаряется и тем самым повышает долю водяного пара в газовой фазе, что приводит в конечном итоге к потере тяжелых углеводородных компонентов;

2) в “пластах”, где количество остаточной воды небольшое, после достижения определенного значения пластового давления даже возможно испарение связанной воды и тем самым "высушивание" призабойной зоны пласта, что приводит в конце концов к ускорению ретроградной конденсации системы.

Положительное влияние испарения воды можно показать на следующем примере: по мере уменьшения количества свободной воды в порах пласта и возвращения растворенных в воде углеводородных газов в газовую фазу снижается темп падения пластового давления и тем самым повышается срок разработки залежей при сравнительно высоких пластовых давлениях.

Таким образом, выделяем три направления в вопросе влияния воды на механизм фазовых превращений в газоконденсатных системах.

1. Вода, находясь в состоянии пара в газовой фазе газоконденсатной смеси, образует но-

вую систему, характеризующуюся отличными от исходной критическими параметрами и большой величиной давления начала конденсации, что приводит к ускорению процесса ретроградной конденсации системы.

